**AZƏRBAYCAN RESPUBLİKASI**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№299/4** **16 aprel 2018-ci il**

**Bir sıra auditor təşkilatlarının keyfiyyətinə kənar nəzarət yoxlamasının vaxtının dəyişdirilməsi ilə bağlı Auditorlar Palatasına müraciətləri barədə**

Bir sıra auditor təşkilatlarının apardıqları auditlərin keyfiyyətinə kənar nəzarət yoxlamasının vaxtının dəyişdirilməsi barədə Auditorlar Palatasına müraciətlərini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2018-ci il üçün Plan-qrafik”in Auditorlar Palatası Şurasının 2018-ci il 23 fevral tarixli 298/3 nömrəli qərarı ilə təsdiq olunduğunu nəzərə alaraq auditor təşkilatları və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarət yoxlamasının vaxtının dəyişdirilməsi barədə müraciətlərinin təmin edilməsi yolverilməzdir.
2. Auditin keyfiyyətə nəzarət şöbəsinə (Y.Namazəliyev) tapşırılsın ki, bu qərarın mətninin Auditorlar Palatasına müraciət edən auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsini təmin etsin.
3. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**